AZERBAIJAN 2017
41ST WORLD SCOUT CONFERENCE
13TH WORLD SCOUT YOUTH FORUM

**Address:**
Azərbaycan Skautlar Assosiasiyası
507 – 513 Ismayil bay Qutqashinli
Baku, Azerbaijan AZ 1073

GSM: +994774517111
e-mail: Info@wsc2017.az
website: www.wsc2017.az

## Azərbaycan Dünya Skaut Konfransına və Dünya Skaut Gənclər Forumuna ev sahibliyi edir

7-10 avqust 2017-ci ildə Qəbələ şəhərində **13-cü Dünya Skaut Gənclər Forumu**, 14-18 avqust 2017-ci ildə Bakıda **41-ci Dünya Skaut Konfransı** keçiriləcək. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə keçiriləcək və dünyanın 157 ölkəsindən ümumilikdə 1500-dən artıq skautun qatılacağı bu beynəxalq tədbirlərdə **Dünya Skaut Hərəkatı Təşkilatı (DSHT)** üzvlərinin nümayəndələri, müxtəlif ölkələrdən yüksək vəzifəli qonaqların iştirakı gözlənilir.

Azərbaycan 2013-cü ilin fevral ayında DSHT-nin əsas tədbirləri olan və üç ildə bir dəfə keçirilən Dünya Skaut Konfransı və Dünya Skaut Gənclər Forumuna ev sahibliyi edəcək tərəf kimi namizədliyini irəli sürmüşdür. Seçim nəticəsində qalib ölkə elan olunmuş Azərbaycan növbəti dəfə dünya miqyasında əhəmiyyətli beynəlxalq tədbirlərə ev sahibliyi edən ölkə çevrilmişdir.

Qəbələdə keçiriləcək **Dünya Skaut Gənclər Forumunun** iştirakçıları gənc liderlik, fəal vətəndaşlıq mövqeyi, skautinqin dünyada baş verən qlobal dəyişikliklərə təsirinə dair mövzular ətrafında müzakirələr aparacaq, eləcə də tədbirin bütün iştirakçıları arasında gənclər proqramlarının həyata keçirilməsi sahəsində təcrübə mübadiləsi edəcəklər.

**Dünya Skaut Konfransı** Bakı Konqres Mərkəzində, eləcə də Heydər Əliyev Mərkəzində baş tutacaq. Müzakirə olunacaq əsas mövzular skaut təşkilatlarının gələcək inkişafından, strategiya və fəaliyyətlərinin yaradılmasından, eləcə də gələcək dövrlərə təşkilatın rəhbər orqanlarına sədrin və üzvlərin seçilməsindən ibarət olacaqdır.

Qeyd etmək lazımdır ki, 13-cü Dünya Skaut Gənclər Forumu və 41-ci Dünya Skaut Konfransı miqyasına görə Avrasiya Skaut Regionunda keçiriləcək ilk irimiqyaslı və müsəlman ölkələri arasında ikinci ən böyük tədbirlər olacaqdır.

Xatırladaq ki, 2000-ci ildən etibarən Dünya Skaut Hərəkatı Təşkilatında ölkəmizi Azərbaycan Skautlar Assosiasiyası təmsil edir.

*Təşkilat komitəsi bu irimiqyaslı və əhəmiyyətli tədbirlərin yerli KİV-də işıqlandırılması məqsədilə kütləvi informasiya vasitələri nümayəndələrini sözügedən tədbirlərdə iştirak etməyə dəvət edir.*
*Zəhmət olmasa, iştirakınızı press@wsc2017.az elektron ünvanına mesaj göndərməklə, yaxud +994552100567 (Nigar) nömrəsi ilə əlaqə saxlamaqla təsdiq edin.*

AZƏRBAYCAN SKAUTLAR ASSOSİASİYASI

AZERBAIJAN 2017
41ST WORLD SCOUT CONFERENCE
13TH WORLD SCOUT YOUTH FORUM

**Address:**
Azərbaycan Skautlar Assosiasiyası
507 – 513 Ismayil bay Qutqashinli
Baku, Azerbaijan AZ 1073

GSM: +994774517111
e-mail: Info@wsc2017.az
website: www.wsc2017.az

**<u>Məlumat üçün</u>**

**Dünya Skaut Hərəkatı Təşkilatı (DSHT)** fəal vətəndaşlara çevrilən, yaşadıqları cəmiyyətdə müsbət dəyişikliklər edən milyonlarla gənci bir araya gətirən dünyada aparıcı gənclər hərəkatından biridir. 1907-ci ildə lord Baden-Pauel tərəfindən təsis edilmiş Dünya Skaut Hərəkatı Təşkilatı (DSHT) sıralarında 40 milyondan artıq insanı birləşdirən 165 Milli Skaut Təşkilatının konfederasiyasıdır.

**Azərbaycan Skautlar Assosiasiyası – ASA** həmçinin Azərbaycan Respublikasının gənclər təşkilatlarının Milli assambleyasının üzvüdür və 20 avqust 2000-ci ildən etibarən **ASA** Dünya Skaut Hərəkatı Təşkilatına qoşulmuşdur. Təşkilat 1997-ci ilin 11 oktyabr tarixində təsis edilmiş və hazırda, təşkilatın Azərbaycanın 16 regionundan 1750-dən artıq üzvü vardır.

**Dünya Skaut Gənclər Forumu** skautinqin gələcəyinə laqeyd olmayan 18-26 yaş arası gənc liderlər arasında iş, ünsiyyət və ideya mübadiləsi üçün platformadır.

**Dünya Skaut Konfransı** Skaut hərəkatının "hesabat-seçki Assambleyası" adlanan ali idarəedici orqanıdır və burada Dünya Skaut Təşkilatının bütün iştirakçı ölkələri təmsil olunurlar.

*Gələcək tədbirlərə dair ətraflı məlumatı tədbirlərin rəsmi İnternet saytında www.wsc2017.az və ya FB-nin rəsmi İnternet səhifəsində www.facebook.com/wsc2017 əldə etmək mümkündür.*
*Konfransın proqramı əlavə olunur.*

AZƏRBAYCAN SKAUTLAR ASSOSİASİYASI